***Miryusif Abbas oğlu Məmmədov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Cəlilabad filialının baş müəllimi*

# AZƏRBAYCAN DİLİ TƏLİMİNDƏ İNNOVATİV ELMİ METODLARDAN İSTİFADƏ ŞAGİRDLƏRİN İDRAKİ BACARIQLARININ YÜKSƏLDİLMƏSİ VASİTƏSİ KİMİ

***Мирюсиф Аббас оглы Мамедов***
*старший преподаватель Джалилабадского филиала Азербайджанского*
*Государственного Педагогического Университета*

# ИСПОЛЬЗОВАНИЕ ИННОВАЦИОННЫХ НАУЧНЫХ МЕТОДОВ В ОБУЧЕНИИ АЗЕРБАЙДЖАНСКОМУ ЯЗЫКУ КАК СРЕДСТВО УЛУЧШЕНИЯ ПОЗНАВАТЕЛЬНЫХ УМЕНИЙ УЧАЩИХСЯ

***Miryusif Abbas Mammadov***
*senior lecturer of the Jalilabad branch of the Azerbaijan State Pedagogical University*

# USE OF INNOVATIVE SCIENTIFIC METHODS IN TEACHING THE AZERBAIJANIAN LANGUAGE AS A MEANS OF IMPROVING STUDENTS' COGNITIVE SKILLS

**Xülasə.** Şagirdlərdən Azərbaycan dilinin tədrisində yeni tədris metodlarından səmərəli istifadə etmək tələb olunur. Yeni təlim metodlarının mənimsənilməsi şagirdlərdə yüksək idrak fəallığını təmin edir. Bu, fəal dərslərin diqqət mərkəzində olan əsas məqamlarından biridir. İkinci məsələ idrak fəallığının davamlılığına nail olmaqdır. Təlim prosesində idrak fəaliyyətini təmin edən mexanizmlər bunlardır: fəal təlimdə problemli vəziyyətin yaradılması; qarşılıqlı dialoq və əməkdaşlıq; şagird tədqiqatçı, müəllimin rəhbərliyi və psixoloji dəstək; hörmət və inamın yaradılması.

İdraki və daxili tələbatın yaradılmasının müxtəlif yolları var. Şagirdlərdə məlum bilik və bacarıqlara istinad etməklə yeni biliyə maraq artır. Bu, şagirdləri axtarışa sövq edir. Qarşıya qoyulan məqsədə çatmaq üçün müvafiq tədris metodları seçmək lazımdır. Təlim metodları məqsədəuyğun olmalıdır. İstifadə olunan təlim metod və üsulları şagirdlərdə qavrayış, məntiqi və yaradıcılıq, müstəqil iş bacarığı və vərdişləri formalaşdırır.

***Açar sözlər:*** *innovativ-elmi metodlar, idrak fəallığı , təlimin məzmunu, nitqin fəaliyyət növləri, məzmun standartları*

**Резюме.** В статье отмечается, что учащиеся должны уметь эффективно использовать новые методы обучения в преподавании азербайджанского языка. Освоение новых методов обучения обеспечивает высокую познавательную активность учащихся. Это один из основных моментов, находящихся в центре внимания интерактивных. Вторая задача заключается в том, что следует добиться продолжительности познавательной деятельности. Механизмы, обеспечивающие познавательную активность в процессе обучения, включают: создание проблемной ситуации в процессе активного обучения; взаимный диалог и сотрудничество; ученик-исследователь, руководство и психологическая поддержка учителей, формирование уважения и доверия.

Существуют разные способы возникновения познавательной и внутренней потребности. Интерес учащихся к новым знаниям возрастает за счет обращения к имеющимся знаниям и умениям. Это мотивирует учащихся к поиску. Для достижения поставленной цели необходимо выбрать подходящие методы обучения. Методы обучения должны соответствовать целям. Применяемые методы и приемы обучения формируют у учащихся понимание, логическое и творческое мышление, умения и навыки самостоятельной работы.

***Ключевые слова:*** *инновационно-научные методы, познавательная активность, содержание обучения, виды речевой деятельности, содержательные стандарты*

**Summary.** The article notes that students should be able to effectively use new teaching methods in teaching the Azerbaijani language. Mastering new teaching methods ensures high cognitive activity of

students. This is one of the highlights being the focus of interactive. The second task is to achieve the duration of cognitive activity. Mechanisms that provide cognitive activity in the learning process include: creating a problem situation in the process of active learning; mutual dialogue and cooperation; student-researcher, guidance and psychological support for teachers, the formation of respect and trust.

There are different ways of the emergence of cognitive and internal needs. Students' interest in new knowledge increases due to the appeal to existing knowledge and skills. This motivates students to search. To achieve this goal, it is necessary to choose suitable teaching methods. Teaching methods must be consistent with the objectives. The applied teaching methods and techniques form students' understanding, logical and creative thinking, skills and abilities of independent work.

***Key words:*** *innovative scientific methods, cognitive activity, learning content, types of speech activity, content standards*

Azərbaycan dili dərslərində fəal/interaktiv təlim texnologiyalarından istifadə Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının və fənn kurikulumunun tələblərinə uyğun olaraq tətbiq edilən mühüm yenilikdir. Şagirdlərin yaradıcı düşünməsini, biliklərə sərbəst yiyələnməsi qabiliyyətini inkişaf etdirmək üçün təlimedici, tərbiyəedici və inkişafetdirici funksiyaları özündə ehtiva edən təlim texnologiyalarından istifadənin səmərəsi inkaredilməzdir. Təlimin məzmununu mənimsəməyə müvəffəq olmaq üçün şagirdlərdən yeni metodlardan səmərəli istifadə bacarığı tələb olunur. Bu da onlarda yüksək idraki fəallığı təmin edir. Şagirdlərin idrak fəallığının təmin edilməsi fəal /inteqrativ dərsdə diqqət mərkəzində saxlanılır. Bu məsələ iki cəhətdən maraq doğurur. İdrak fəallığının yaradılması məsələnin bir tərəfidirsə, onun davamlılığına nail olmaq problemin digər bir tərəfidir. Bu mənada, idrak fəallığının yaradılması işin bir tərəfidir. Yaradılmış fəallığın dərsin bütün mərhələlərində, məqamlarında saxlanılması və davamlılığı zəruridir. Təlimdə idrak fəallığının təmin edilməsi *problemli vəziyyətin yaradılması; dialoq və əməkdaşlığa önəm verilməsi; şagirdin tədqiqatçı, müəllimin bələdçi olması və psixoloji dəstək: hörmət və etibarın yaradılması* mexanizmləri ilə təşkil olunur.

Azərbaycan dili dərslərində şagirdlərdə idraki maraq, problemin həll olunması üçün daxili tələbatın yaradılması yollarının müxtəlifliyi mövcuddur. Mövcud bilik və bacarıqlara istinad etməklə şagirdlərdə yeni biliyə tələbat yaranır. Bu, şagirdləri axtarışlara sövq edir. Mövcud vəziyyətin təşkili müxtəlif üsul və metodlar vasitəsi ilə reallaşdırılır. Bu zaman məqsədə nail olaq üçün müvafiq təlim metodu seçilə bilər. Bu vasitədən məqsədyönlü istifadə edilməsi zəruridir. Təlim prosesində təlim metodlarından necə gəldi istifadə etmək yox, onları təlim məqsədinə uyğun seçmək lazımdır. İnteraktiv metodlarla məqsədə daha tez və səmərəli şəkildə nail olmaq mümkündür. Metodun seçilməsi zamanı bir sıra şərtlər nəzərə alınmalıdır. Seçilmiş metod şagirdlərdə problemli məsələləri həll etməyə tələbat yaratmalı, onlara fikirləşməyi öyrətməlidir. Burada şagirdlərin yaş həddinin gözlənilməsi, məktəbin maddi bazası və müəllimin öz şəxsi hazırlığı da nəzərə alınmalıdır. Bunlarla yanaşı, Azərbaycan dili dərslərində bu və ya digər interaktiv metodun seçilməsində təlim materiallarının xarakteri, gözlənilən şagird nailiyyətləri kimi amillər də mütləq nəzərə alınmalıdır. Gözlənilən nailiyyətlərinin əldə edilməsi üçün istifadə olunan üsul və metodlar şagirdlərdə oxuduğu mətni qavramaq, məntiqi və yaradıcı düşünmək, ümumiləşdirmək və onlarda sərbəst işləmək bacarıq və vərdişləri formalaşdırır.

Azərbaycan dili fənn kurikulumunda təlim ənənəvi təhsildən fərqli məzmun kəsb edir. Yeni yanaşmada əsas məqsəd dilin daxili quruluşunu əks etdirən çoxsaylı tərif və qaydaların mənimsənilməsi deyil, başlıca məqsəd hərtərəfli nitq bacarıqları formalaşdırmaqdır. Azərbaycan dilindən sistematik kursda nitq mədəniyyəti kurikulumu metodikanın səmtini nitq inkişafına doğru yönəltmişdir. Təlimdə düzgün və dəqiq, aydın və səlis, eləcə də ifadəli oxumaq, yazmaq və danışmaq məqsədi ilə fonetik, leksik, qrammatik və üslubi normaların mənimsənilməsi nitq inkişafı metodikası hesab edilir. Mətn üzərində iş məlumatları mənimsəmək bacarığını formalaşdırmağa hesablanır. Mətndəki biliyin, informasiyanın yadda saxlanılması vacib deyil, onlardan qiymətləndirmə obyekti kimi istifadə edilmir. Belə ki, şagirdlərin diqqəti rabitəli nitq materialı üzərində cəmlənir; vasitə xarakterli mətnə görə dinləməyi, anlamağı, danışmağı bacarır, bununla yanaşı onlar-

da düzgün şüurlu, ifadəli oxu vərdişləri formalaşır və onlar yeni mətn tərtib etmək qabiliyyətinə yiyələnirlər. Bu, qarşıya qoyulmuş məqsədə uyğun şagird nailiyyətləri ilə tamamlanmalıdır. Gözlənilən şagird nailiyyətləri əsas bilik və bacarıq formasında əsas və alt-standartlarda öz ifadəsini tapır ki, bu da təlimdə fənnin məzmun standartı adı ilə dövlət tələbidir.

Azərbaycan dili dərslərində bədii və elmi-kütləvi mətnlər vasitəsi ilə reallaşdırılan məzmun standartlarından əldə ediləcək təlim nəticələrinin hasil olması üçün istifadə edilən interaktiv metodlar şagirdlərin mətni asan qavramasına kömək edir. Məsələn, şifahi nitqin qavranılması, beyində mənalandırılması şagirddə fiziki şəkildə mövcud olur ki, buna dinləmə mətnləri üzrə iş aparmaqla nail olmaq olar. Buna *debat* və *müzakirələr* təşkil etməklə və mətn üzrə iş aparmaqla nail olmaq olar.

Azərbaycan dili fənninin əsas məqsədlərindən biri şagirdlərin ümumi intellektini, dünyagörüşünü inkişaf etdirməkdir. Buna isə ilk növbədə, yaş həddinə uyğun mətnlərin oxunması ilə nail olmaq olar. Bu, iki istiqamətdə inkişaf etdirilir:

*1) oxu texnikasının inkişafı ilə; 2) şüurlu oxumaqla.*

Hər iki istiqamət ümumilikdə şagirdlərdə səlis, düzgün, ifadəli oxu bacarığına yiyələnmə və oxuyub anlama, əsas fikri müəyyənetmə qabiliyyəti formalaşdırır. Məsələn, ”*Təxminetmə”* üsulunun oxu prosesində tətbiqi imkan verir ki, şagirdlər mətnin başlığını oxumaqla onun mövzusunu müəyyən etsinlər. Mətnə aid illüstrasiyalar nəzərdən keçirilir, mətnin məzmunu təxmin edilir. Bu da şagirdin yaradıcı təfəkkürünün inkişafına xidmət edir.

Yazı şagirdlərin özünüifadə bacarıqlarından biridir. Duyğu və düşüncələr dil normalarına tabe tutularaq yazılı şəkildə ifadə olunur. Mətnin düzgün tərtib edilməsi və hissələrinin əlaqələndirilməsi əsas tələblərdəndir.

Yazı standartları müxtəlif yazı formaları üzrə bacarıqları müxtəlif üsullarla inkişaf etdirməyi tələb edir. Şagirdlər *inşa, ifadə, hekayə, esse* yazmaqla, *təqdimat, məruzə* hazırlamaqla yazı bacarıqlarını inkişaf etdirirlər. Yazının müxtəlif üsulları var ki, bunlardan *cəld yazı, sərbəst yazı və yazılı debatı* göstərmək olar.

Çoxsaylı interaktiv təlim metodlarının məzmun xətləri üzrə bölgüsü müxtəlif üsul və metodların istifadə imkanlarını yalnız müəyyən bir məzmun xəttinin reallaşdırılması üzrə məhdudlaşdırmır. Məsələn, *"ziqzaq"* üsulu dinləmə, danışma və oxu məzmun xətləri üzrə tətbiq olumaqla mətnin məzmununun şagirdlər tərəfindən mənimsənilməsini təmin edir.

Azərbaycan dili dərslərində hər bir məzmun xətti üzrə seçilmiş fəal/interaktiv metod şagirdlərdə nitq bacarığını formalaşdırmağa və inkişafa istiqamətlənmiş və təlim nəticələri ilə qarşılıqlı əlaqədə olub, dinləyib-anlama və danışma qabiliyyəti, oxuyub-yazma bacarıqları formalaşdırır.

**Problemin aktuallığı.** Yeni təlim metodlarından səmərəli istifadə bacarığına yiyələnmə təlimin məzmununun mənimsənilməsinin başlıca şərtidir. Şagirdlərin təlim prosesində bu cür bacarıqları əldə etməsi onların idraki fəallığını yüksəldir. Bu baxımdan mövzu öz aktuallığını qoruyub saxlayır.

**Problemin elmi yeniliyi.** Azərbaycan dili təlimində innnovativ-elmi metodlardan istifadə şagirdlərin idraki fəallığının yüksəldilməsi vasitəsi kimi müəyyən edilmiş, onun xüsusiyyətlərindən danışılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Şagirdlərin idraki bacarıqlarının yüksəldilməsi vasitələrinin müəyyən olunması, onun təlimdə alətə çevrilməsi metodik cəhətdən böyük praktik əhəmiyyətə malikdir.

**Ədəbiyyat:**


1. Hacıyev, A. Ana dili fənni üzrə məzmun startlarının xüsusiyyətləri, "Kurikulum", – Bakı, №1, – 2011.
2. Mehrabov, A.O. Pedaqoji texnologiyalar. / A.O. Mehrabov Ə. Abbasov, Z. Zeynalov, R. Həsənov. – Bakı: Mütərcim, – 2006.
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəzeti. 25 oktyabr 2013. №41 (8558)
4. Ağayev, Ə. Təlim prosesi: ənənə və müasirlik. – Bakı: Adiloğlu, – 2006.


**E-mail:** miryusifmcma@gmail.com

**Rəyçilər:** *filol.ü.fəsl.dok. dos.* **Y.B. Dadaşlı**
*filol.ü fəls.dok.* **A.A. Əhmədov**
**Redaksiyaya daxil olub:** 26.04.2022.